Non official translation / Qeyri-rəsmi tərcümə

# TƏHLÜKƏSİZLİK QÜVVƏLƏRİ TƏRƏFİNDƏN TÖRƏDİLƏN ÖLÜM VƏ YA QƏDDAR RƏFTAR HALLARI İLƏ BAĞLI

# SƏMƏRƏLİ ARAŞDIRMALAR




AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Non official translation / Qeyri-rəsmi tərcümə

**İyul 2020-ci il**

## TƏHLÜKƏSİZLİK QÜVVƏLƏRİ TƏRƏFİNDƏN TÖRƏDİLƏN ÖLÜM VƏ YA QƏDDAR RƏFTAR HALLARI İLƏ BAĞLI

# SƏMƏRƏLİ ARAŞDIRMALAR

Bu xülasələr yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamentinin məsuliyyəti altında hazırlanır və Nazirlər Komitəsi üçün heç bir şəkildə öhdəlik yaratmır.

1. MÜSTƏQİLLİK ..... 3
2. ADEKVATLIQ ..... 6
3. OPERATİVLİK ..... 8
   3.a. Operativlik və müəyyən edilmiş müddətlər arasında əlaqə ..... 9
4. QURBANLARIN İŞTİRAKI VƏ İCTİMAİ NƏZARƏT ..... 10
5. CİNAYƏTİN XÜSUSİ MOTİVLƏRİNİN ARAŞDIRILMASI ..... 12
6. ARAŞDIRMALARA MÜSTƏQİL NƏZARƏT ..... 13
7. QURBANLAR ÜÇÜN TƏZMİNAT ..... 14
ƏLAVƏ – İŞLƏRİN SİYAHISI ..... 15

Avropa İnsan Hüquqları Məhkəməsi təhlükəsizlik qüvvələri tərəfindən törədilən təsdiqlənmiş və ya iddia edilən pozuntularla bağlı səmərəli araşdırma aparılmamasına görə Konvensiyanın 2-ci (yaşamaq hüququ) və/və ya 3-cü (işgəncələrin qadağan olunması) maddələrinin prosessual aspektinin pozulduğunu müəyyən etdiyi hallarda, bu fundamental hüquqların pozulması ilə bağlı bu cür araşdırmanın aparılması üzrə davamlı öhdəlik mövcud olur ki, bu da praktikada dövlət orqanlarının müəyyən edilmiş müddətləri ötürməmək üçün iş materiallarını tez bir zamanda və vəzifə səlahiyyətlərinə uyğun olaraq araşdırmasını və istintaqı davam etdirmək mümkün olan hallarda işi yenidən açmasını və ya icraatı bərpa etməsini tələb edir.

Hazırkı bülletendə Məhkəmənin presedent hüququnda müəyyən edilmiş və Nazirlər Komitəsi tərəfindən nəzarət edilən araşdırmaların səmərəliliyinin aşağıdakı əsas elementlərinə diqqət yetirilir: müstəqillik; adekvatlıq; operativlik; cinayətin xüsusi motivlərinin araşdırılması; müstəqil nəzarət; və zərərçəkənlər üçün kompensasiya. Burada araşdırmaların səmərəliliyini təmin etmək və artırmaq məqsədilə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində dövlətlər tərəfindən qəbul edilmiş və barəsində məlumat verilmiş tədbirlərə dair bir sıra nümunələr təqdim edilir.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.*
*Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

# 1. MÜSTƏQİLLİK

*Konvensiya araşdırmaların əvvəldən müstəqil orqanlar tərəfindən aparılmasını tələb edir. Bu tələbə cavab vermək üçün araşdırma aparan orqan barəsində araşdırma aparılan orqanlardan kifayət qədər (həm institusional, həm də praktiki baxımdan) müstəqilliyə malik olmalıdır. Bu o deməkdir ki, müstəqillik məsələsi sözügedən hadisələrə görə məsuliyyət daşıdığı iddia edilən dövlət nümayəndələri/orqanları ilə araşdırma aparanlar arasında münasibətlər fonunda nəzərdən keçirilməlidir.*

| | |
|---|---|
| Ombudsman aparatı və onun işgəncələrin qarşısının alınması bölməsi, eləcə də daxili işlər və şikayətlər xidməti müstəqil araşdırma orqanı kimi hüquq-mühafizə orqanları tərəfindən törədildiyi iddia edilən qəddar rəftarla bağlı bütün hadisələrin, o cümlədən dövlət rəsmilərinin qanunsuz hərəkətlərindən və hərəkətsizliyindən verilən şikayətlərin monitorinqini aparır. | ***ALB / Pihoni (74389/13)***<br><br>***Yekun qərar: 13/05/2018***<br><br>***Fəaliyyət Planı*** |
| Xüsusi Araşdırma Xidməti (XAX) 2007-ci ildə polislər tərəfindən törədildiyi iddia edilən qəddar rəftar aktlarını araşdırmaq üçün Baş prokurora tabe olan müstəqil orqan kimi yaradılıb. DİM-in rəhbəri Baş Prokurorun təqdimatı ilə Respublika Prezidenti tərəfindən təyin edilir. XAX-nin işgəncələrin araşdırılması departamenti qəddar rəftar halları ilə bağlı ilkin araşdırmalar aparır. Cinayət Prosessual Məcəlləsinə 2015-ci ildə edilmiş dəyişikliklərə əsasən, zərərçəkənlərin şikayətləri artıq xüsusi ittiham qaydasında cinayət təqibi ilə deyil, dövlət ittihamı qaydasında cinayət təqibi ilə nəticələnir. Hərbçilər tərəfindən qəddar rəftar hallarının törədildiyi barədə iddialar 2014-cü ildə yaradılmış institusional və struktur cəhətdən müstəqil qurum olan Araşdırma komitəsi tərəfindən araşdırılır. | ***ERM / Virabyan (40094/05)***<br><br>***Yekun qərar: 02/01/2013***<br><br>***Fəaliyyət Planı*** |
| 2011-ci il tarixli Cinayət Prosessual Məcəlləsi qəddar rəftar iddiaları ilə bağlı cinayət araşdırmalarının aparılmasına dövlət prokurorlarının cavabdeh olduğunu və polisin yalnız dövlət prokurorlarının göstərişləri əsasında hərəkət edə biləcəyini nəzərdə tutur. | ***XOR / Mader (56185/07)***<br><br>***Yekun qərar: 21/09/2011***<br><br>***Fəaliyyət Planı*** |
| Polisə qarşı iddiaların və şikayətlərin araşdırılması üzrə müstəqil orqan 2006-cı ildə qəddar rəftar iddiaları ilə bağlı öz təşəbbüsü ilə araşdırmalar aparmaq üçün yaradılmışdır. O, araşdırmanın materiallarını və nəticələrini qərar qəbul edilməsi üçün Baş prokurora təqdim edir. | ***KİP / Shchukin və başqaları (14030/03)***<br><br>***Yekun qərar: 29/10/2010***<br><br>***Yekun qətnamə: CM/ResDH(2014)93*** |
| Polis tərəfindən həbsdə saxlanılan şübhəli şəxslərin ölümünün halları ilə bağlı müstəqil araşdırmaların aparılması məqsədilə 2012-ci ildə polis əməkdaşları tərəfindən törədilmiş cinayətləri araşdıracaq müstəqil qurum olan Təhlükəsizlik Qüvvələrinin Baş Müfəttişliyi yaradılmışdır. | ***ÇEX / Eremiasova və Pechova (23944/04)***<br><br>***Yekun qərar: 16/05/2012***<br><br>***Yekun qətnamə: CM/ResDH(2014)69*** |

| | |
|---|---|
| 2018-ci il konstitusiya dəyişikliyindən sonra Baş prokuror parlament tərəfindən altı il müddətinə seçilir və yalnız parlament qarşısında hesabat verir. Bundan başqa, 2019-cu ildə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən törədilmiş işgəncə, qəddar rəftar və bir sıra digər cinayətlərin araşdırılması ilə bağlı Dövlət Müfəttişliyi Xidməti fəaliyyətə başlayıb. Dövlət müfəttişi də parlament tərəfindən altı il müddətinə seçilir və yalnız parlament qarşısında hesabat verir. | ***GÜR / Tsintsabadze qrupu (35403/06)***<br>***Yekun qərar: 18/03/2011***<br>***Fəaliyyət Planı*** |
| 2013-cü ildə Bavariya Kriminal Polis İdarəsində öz vəzifələrini müstəqil və obyektiv şəkildə, Bavariya polisinin gündəlik əməliyyat fəaliyyətindən ayrılıqda icra edən, polisin iğtişaşlara nəzarət bölmələrinin əməkdaşlarının adlarını göstərən nişan və ya digər fərdi identikləşdirmə nişanı taxmadığı və videoçəkiliş aparılmadığı şəraitdə etdiyi hərəkətlərlə bağlı araşdırmaların müstəqilliyini təmin edən mərkəzi daxili araşdırma bölməsi yaradılmışdır. Beləliklə, araşdırma aparan bölmə hüquqa zidd davranışda ittiham olunan polis bölməsi ilə iyerarxik, institusional və ya praktiki baxımdan əlaqəli deyil. | ***ALM / Hentschel və Stark (47274/15)***<br>***Yekun qərar: 09/02/2018***<br>***Fəaliyyət Planı*** |
| 2015-ci ildə Daxili İşlər Nazirliyinin tabeliyində olan qurumların, o cümlədən polis orqanlarının vəzifəli şəxslərinin və həbsxana əməkdaşlarının əməllərinin araşdırılması məqsədilə Daxili Təhlükəsizlik Bürosu yaradılıb. Bu Büro institusional olaraq polis və həbsxana rəhbərliyindən müstəqildir. O, daxili işlər naziri tərəfindən idarə olunur, ayrıca büdcəsi, öz binaları və regional bölmələri var. | ***LAT / Holodenko qrupu (17215/07)***<br>***Yekun qərar: 04/11/2013***<br>***Yekun qətnamə: ResDH(2018)382***<br>***LAT / Balajevs (8347/07)***<br>***Yekun qərar: 28/07/2016***<br>***Fəaliyyət Planı*** |
| 2007 və 2011-ci illərdə Cinayət Prosessual Qanununa və "Dövlət prokurorluğu haqqında" Qanuna əlavə və dəyişikliklər edilib ki, polis əməkdaşları tərəfindən törədildiyi iddia edilən qəddar rəftarla bağlı araşdırmaların aparılması səlahiyyəti əvvəlcə xüsusi təyinatlı qrup şəklində təşkil edilmiş dövlət prokurorlarına, sonra isə Dövlət Prokurorluğu nəzdində yeni yaradılmış Vəzifəli Şəxslərlə bağlı İstintaq və Cinayət Təqibi üzrə Xüsusi Departamentə həvalə edilib. Bu departament peşəkar fəaliyyətlərin və əməliyyatların muxtariyyəti prinsipi əsasında fəaliyyət göstərir və polis, hərbi polis və kəşfiyyat orqanlarının vəzifəli şəxsləri tərəfindən törədildiyi iddia edilən cinayət əməllərinin araşdırılması üzrə müstəsna yurisdiksiyaya malikdir. | ***SVN / Matko (43393/98)***<br>***Yekun qərar: 02/02/2007***<br>***Fəaliyyət Planı***<br>***SVN / Franciska Stefancic (58349/09)***<br>***Yekun qərar: 24/01/2018***<br>***Fəaliyyət Planı*** |
| 2015-ci ildən etibarən Yüksək Kassasiya və Ədalət Məhkəməsi yanında Prokurorluq İdarəsinin qərarına əsasən, dövlət nümayəndələri ilə bağlı şikayətlər üzrə araşdırmalar məhkəmə polisi tərəfindən deyil, müstəsna qaydada yuxarı məhkəmələrə tabe olan prokurorlar tərəfindən aparılmalıdır. Bu prokurorlar öz vəzifələrini yerinə yetirərkən məhkəmə polisinin fəaliyyətinə nəzarət funksiyalarını icra etməyən prokurorlar arasından seçilirlər. | ***RUM / Barbu Anghelescu №1 (46430/99)***<br>***Yekun qərar: 05/01/2005***<br>***Yekun qətnamə: CM/ResDH(2016)150*** |
| Şimali Qafqazda antiterror əməliyyatları zamanı təhlükəsizlik qüvvələrinin hərəkətləri nəticəsində baş vermiş sui-istifadə halları ilə bağlı araşdırmaların aparılması üçün 2007-2008-ci illərdə İstintaq Komitəsinin Çeçenistan Respublikası üzrə İdarəsində xüsusi istintaq bölmələri yaradılıb. Həmin bölmələrə nəzarət İstintaq Komitəsinin mərkəzi aparatı tərəfindən təmin edilib. | ***RUS / Khashiyev və Akayeva qrupu (57942/00)***<br>***Yekun qərar: 06/07/2005***<br>***Aralıq qətnamə: CM/ResDH(2015)45*** |

| | |
|---|---|
| Birləşmiş Krallığın silahlı qüvvələri tərəfindən cənubi İraqın işğalı zamanı İraq vətəndaşlarının ölümü ilə bağlı araşdırmalara gəldikdə, Müdafiə Nazirliyi 2010-cu ildə İraqla bağlı Tarixi İddiaların Araşdırılması Qrupu (IHAT) tərəfindən aparılan cinayət araşdırmaları ilə Ali Məhkəmənin təqaüddə olan hakimi tərəfindən aparılan (“ölüm hallarının araşdırılması” adlandırılan) faktaraşdırıcı tipli təhqiqatın kombinasiyasından ibarət olan və/yaxud Ali Məhkəmənin təyin etdiyi hakim tərəfindən nəzarət edilən istintaq prosesi təsis etdi. 2012-ci ildə aparılmış struktur dəyişikliklərindən sonra Ali Məhkəmənin 2013-cü il tarixli qərarı ilə IHAT kifayət qədər müstəqil qurum kimi tanındı. | ***BK / Al-Skeini və başqaları (55721/07)***<br>***Yekun qərar: 07/07/2011***<br>***Yekun qətnamə: CM/ResDH(2016)298*** |
| Yüksək vəzifəli şəxslər, hakimlər və hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən törədilmiş cinayətlərin istintaqını həyata keçirmək üçün 2016-cı ildə müstəqil icra hakimiyyəti orqanı olan Dövlət İstintaq Bürosu (DİB) yaradıldı və 2018-ci ildən fəaliyyətə başladı. Baş Prokurorluğun tərkibində DİB-in səlahiyyətlərinə aid olan cinayət işlərinin icraatına prosessual rəhbərliyi həyata keçirən departament DİB tərəfindən aparılan məhkəməyəqədər araşdırmalara prosessual nəzarəti həyata keçirir və bu işlər üzrə cinayət təqibini aparır. | ***UKR / Kaverzin qrupu (23893/03)***<br>***Yekun qərar: 15/08/2012***<br>***Fəaliyyət Planı***<br>***UKR / Afanasyev qrupu (38722/02)***<br>***Yekun qərar: 05/07/2005***<br>***Fəaliyyət Planı***<br>***UKR / Belousov (4494/07)***<br>***Yekun qərar: 07/02/2014***<br>***NK-nın qərarı, 2019*** |

## 2. ADEKVATLIQ

*Konvensiya araşdırmaların adekvat şəkildə aparılmasını tələb edir. İstintaq orqanları bütün müvafiq faktların müəyyən edilməsinə, habelə təqsirkarların müəyyənləşdirilməsinə və lazım gəldikdə cəzalandırılmasına gətirib çıxara biləcək bilik və bacarıqlara və səlahiyyətlərə malik olmalıdırlar.*

| | |
|---|---|
| 2003-cü ildə təsis edilmiş İnsan Hüquqlarının Müdafiəçisi (İHM) aparatı orduya vətəndaş nəzarətini həyata keçirir. İHM aparatı Müdafiə Nazirliyinin tabeliyində olan azadlıqdan məhrumetmə yerlərində mütəmadi olaraq monitorinq aparır və onun nəzdində hərbi qulluqçuların hüquqlarının müdafiəsi üzrə ixtisaslaşdırılmış şöbə yaradılıb, bu şöbə həmçinin onların şikayətlərinə baxır və hüquqi məsləhətlər verir. İHM aparatının 24/7 rejimində çalışan ödənişsiz qaynar xətti hərbi qulluqçuların və mülki şəxslərin silahlı qüvvələrlə bağlı hər hansı məsələ barədə məlumat verməsinə imkan verir. | ***ERM / Muradyan (11275/07)***<br>*Yekun qərar: 24/02/2017*<br>*Fəaliyyət Planı* |
| Kriminalistik sübutların vaxtında toplanmasını təmin etmək üçün Baş Prokuror 2014-cü ildə polis tərəfindən törədilən qəddar rəftar barədə iddia irəli sürüldükdə atılmalı olan prosessual addımlar barədə təlimatlar verib. Şikayətçinin şikayət etdiyi andan və ya polisə belə qəddar rəftar barədə məlumat daxil olduğu andan 24 saat ərzində məhkəmə-tibb eksperti şikayətçini müayinə etməlidir. İnsidentlər barədə Baş Prokurorluğa və Polisə qarşı İddia və Şikayətlərin Araşdırılması İdarəsinin sədrinə məlumat verilməlidir. 2017-ci ildə qanunda edilmiş dəyişiklik belə tibbi müayinələrin aşağıdakı sənədə uyğun olaraq həyata keçirilməsini nəzərdə tutur: "İstanbul Protokolu: İşgəncələrin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növlərinin səmərəli araşdırılması və sənədləşdirilməsi üzrə Təlimat". | ***KİP / Khani Kabarra (24459/12)***<br>*Yekun qərar: 05/09/2018*<br>*Fəaliyyət Planı* |
| 2016-cı ildə Baş Prokurorluqda aparılan islahatlardan sonra onun İşgəncələrə Qarşı Mübarizə İdarəsinə mürəkkəb işlər üzrə araşdırma aparmaq, ərazi prokurorluqları tərəfindən aparılan araşdırmalara nəzarət etmək, təhlükəsizlik qüvvələrinin iştirakı ilə törədilən qəddar rəftarla bağlı işlərdə tabeliyindəki bütün prokurorlara rəhbərlik etmək və dəstək göstərmək tapşırılıb. Bundan başqa, ağırlaşdırıcı hallarla qəddar rəftar və işgəncə işlərinin araşdırılması üçün işgəncələrə qarşı xüsusi bölmələri olan Mütəşəkkil Cinayətkarlıqla Mübarizə üzrə İxtisaslaşdırılmış Prokurorluq İdarəsi yaradılmışdır. İşgəncələrə qarşı mübarizə bölmələrindəki prokurorlar yalnız qəddar rəftarla bağlı işlərə təyin edilir və polis və ya digər hüquq-mühafizə orqanları ilə heç bir birgə işlərə cəlb olunmurlar. | ***MDA / Corsacov qrupu (18944/02)***<br>*Yekun qərar: 04/07/2006*<br>*Yekun qətnamə: CM/ResDH(2018)463*<br>***MDA / Levinta (17332/03)***<br>*Yekun qərar: 16/03/2009*<br>*Fəaliyyət hesabatı* |
| Niderland Kral Ordusunun xaricdə dislokasiya olunmuş şəxsi heyətinin iştirakı ilə baş vermiş ölümlə nəticələnən insidentlə bağlı məhkəmə qərarından sonra yüksək riskli ərazilərdə hərbi personalın iştirak etdiyi əməliyyatlarla bağlı hərbi cinayətlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi üçün xüsusi təyin olunmuş Komitə tərəfindən qiymətləndirmə aparılmışdır. Məsləhətləşmələrin və təlimlərin keçirilməsi, xüsusilə istintaq qruplarının yaradılması; komandirlər, hərbi polis dəstələri və prokurorlar arasında əlaqənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülmüş; ölümlə nəticələnə bilən güc tətbiqindən sonra atılmalı olan addımlara dair təlimatlar təqdim edilmişdir. Baş Prokurorluq tərəfindən hərbi əməliyyatlar zamanı araşdırmalar üçün əsas məsələlərin və mümkün fəaliyyət istiqamətlərinin icmalını özündə əks etdirən istintaq təlimatı işlənib hazırlanmışdır ki, bu da digər məsələlərlə yanaşı, hərbi əməliyyat zonalarında cinayət işləri üzrə yerli ədalət mühakiməsi orqanları ilə və koalisiya tərəfdaşları ilə koordinasiyanı, sübutların toplanması və qeydlərin qorunması işini yaxşılaşdırmaq məqsədi daşıyır. | ***NDL / Jaloud (47708/08)***<br>*Yekun qərar: 20/11/2014*<br>*Yekun qətnamə: CM/ResDH(2018)47* |

| | |
|---|---|
| 2008-ci ildə Ombudsman Aparatı hüquq-mühafizə orqanlarının hərəkətləri ilə bağlı şikayətlərə baxan xüsusi bölmə yaradıb. 2012-ci ildə Daxili işlər naziri polis tərəfindən saxlanılan şəxslərin tibbi müayinədən keçirilməsi haqqında əmr qəbul edib. 2014-cü ildə Baş Prokuror polis əməkdaşları və ya digər dövlət qulluqçuları tərəfindən törədilən ölüm və qəddar rəftar halları ilə bağlı icraatların aparılmasına dair təlimatlar təqdim edib. | ***POL / Dzwonkovski qrupu (46702/99)***<br>*Yekun qərar: 12/04/2007*<br>*Yekun qətnamə: CM/ResDH(2016)148* |
| 2015-ci ildə Yüksək Kassasiya və Ədalət Məhkəməsi yanında Prokurorluq İdarəsi dövlət orqanlarının əməkdaşları (polis orqanlarının, penitensiar müəssisələrin əməkdaşları, jandarmlar) tərəfindən törədilən qəddar rəftar halları ilə bağlı səmərəli araşdırmaların aparılmasına dair strategiya qəbul edib. Həmçinin həbsxanada qəddar rəftar hallarının səmərəli şəkildə qarşısının alınması və aşkarlanması işi peşə təlimi fəaliyyətləri vasitəsilə və müdaxilələrə Milli Penitensiar Administrasiya tərəfindən nəzarət vasitəsilə gücləndirilmişdir. Bundan əlavə, qəddar rəftarın tibbi sübutlarının sənədləşdirilməsi və təqdim edilməsi qaydaları qəbul edilmişdir. | ***RUM / Predica qrupu (42344/70)***<br>*Yekun qərar: 07/09/2011*<br>*Yekun qətnamə: CM/ResDH(2017)291* |
| Polis tərəfindən törədildiyi iddia edilən qəddar rəftarla bağlı araşdırmaların lazımi səylə və qərəzsiz şəkildə aparılmasının zəruriliyi Federal Məhkəmənin bərqərar olmuş presedent hüququnda vurğulanmışdır. Konkret olaraq Cenevrə kantonuna gəlincə, 2008-ci ildə polis əməkdaşlarına qarşı şikayətlərə baxan ümumi xidməti müfəttişlik yaradılmışdır. | ***İSVR / Dembele (74010/11)***<br>*Yekun qərar: 26/09/2016*<br>*Yekun qətnamə: CM/ResDH(2016)175* |

## 3. OPERATİVLİK

*Konvensiya həmçinin araşdırmaların yubadılmadan aparılmasını tələb edir. İstintaq orqanları hadisələrə reaksiya verməli və xüsusilə sübutların təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edən istintaq hərəkətlərinə dərhal başlamalıdırlar. Bu kontekstdə xüsusi problem araşdırma predmeti olan potensial cinayətlərin istintaqı üçün müəyyən edilmiş müddətin başa çatması riskidir (3.a bölməsinə bax).*

| | |
|---|---|
| İbtidai araşdırmanın və istintaqın başa çatdırılması üçün müddətlər müəyyən edilir. 2017-ci ildə cinayət istintaqının uzun sürməsinə görə avtomatik bağlanması haqqında müddəa ləğv edilib və zərərçəkmişlər və təqsirləndirilən şəxslər üçün tezləşdirici hüquqi müdafiə vasitələri tətbiq edilib. 2017-ci ilin iyul ayında qəbul edilmiş yol xəritəsində əlavə islahatlar aparılması, xüsusən də polis tərəfindən törədilən qəddar rəftarla bağlı şikayətlərin ixtisaslaşmış prokurorlar tərəfindən araşdırılması və bütün bu şikayətlərin avtomatik olaraq prokurorluğa göndərilməsi nəzərdə tutulub. | ***BOL / S.Z. (29263/12)***<br>***Yekun qərar: 03/06/2015***<br>***Fəaliyyət Planı*** |
| "Dövlət prokurorluğu haqqında" 2007-ci il tarixli Qanuna əsasən, polis əməkdaşları tərəfindən qəddar rəftara məruz qalma ilə bağlı araşdırmaların uzun sürməsinin qarşısını almaq üçün dövlət prokurorları şikayət verildikdən sonra 30 gün ərzində prosessual addımlar atmağa borcludurlar. 2010-cu il tarixli Cinayət Prosessual Məcəlləsinə əsasən, prokurorlar üç ay ərzində cinayətlə bağlı şikayətin mahiyyəti üzrə qərar qəbul etməlidirlər. Gecikmələr olduqda, prokuror şikayətçiyə və yuxarı prokurora məlumat verməlidir. Özbaşınalıq hallarının qarşısını almaq üçün Cinayət Prosessual Qanununa 2013-cü ildə yuxarı prokurora şikayət etmək hüququ barədə müddəa daxil edilib. | ***MKD / Jasar qrupu (69908/01)***<br>***Yekun qərar: 15/05/2007***<br>***Yekun qətnamə: CM/ResDH(2018)72***<br>***MKD / Kitanovski qrupu (15191/12)***<br>***Yekun qərar: 22/04/2015***<br>***Fəaliyyət Planı*** |
| Polis əməkdaşları tərəfindən odlu silahın tətbiqi nəticəsində xəsarət alanlar barədə operativ araşdırmaların aparılmasını təmin etmək üçün baş vermiş insident barədə həmin əməkdaşların rəislərinə məlumat verilməli, onlar bu barədə 48 saat ərzində yazılı hesabat hazırlamalı və bu barədə dövlət ittihamçısına məlumat verməlidirlər. Hadisə yerinə operativ gəlişi təmin etmək məqsədilə Dövlət Cinayət Axtarışı Departamentinin növbətçilik sistemi təkmilləşdirilib. Departament tərəfindən həyata keçirilə bilməyən bütün araşdırmalar müvafiq rayon polisinin Daxili Təhqiqatlar Bürosu və ya qonşu polis qüvvələrinin əməkdaşları tərəfindən aparılır. | ***NDL / Ramsahai (52391/99)***<br>***Yekun qərar: 15/05/2007***<br>***Yekun qətnamə: CM/ResDH(2010)178*** |
| 1990-cı illərdə təhlükəsizlik qüvvələrinin antiterror əməliyyatları zamanı baş vermiş mülki şəxslərə qarşı qəddar rəftar və ölüm halları ilə bağlı Ədliyyə Nazirliyinin 2003-cü il tarixli sirkulyarında cinayətlər üzrə araşdırmaların dövlət prokurorları tərəfindən (təhlükəsizlik qüvvələrinin üzvləri tərəfindən deyil) operativ şəkildə aparılmasının zəruriliyi vurğulanır. Təhlükəsizlik qüvvələrinin əməkdaşları tərəfindən törədildiyi iddia edilən qəddar rəftar və işgəncə halları ilə bağlı cinayət istintaqının başlanması üçün inzibati icazə alınması tələbi 2003-cü ildə ləğv edilib. | ***TÜR / Aksoy qrupu (21987/93)***<br>***Yekun qərar: 18/12/1996***<br>***Aralıq qətnamə: ResDH(2005)43***<br>***Yekun qətnamə: CM/ResDH(2019)51*** |
| Qəddar rəftarla bağlı işlərin istintaqının operativliyini artırmaq məqsədilə 2016-cı ildə Cinayət Prosessual Məcəlləsinə prokurorların və hakimlərin bu cür işlərə prioritet verməsini tələb edən dəyişiklik daxil edilib. Ədliyyə Nazirliyi 2017-ci ildə prokurorlardan işgəncə iddiaları ilə bağlı araşdırmaları 180 gün, həddindən artıq güc tətbiqi faktları ilə bağlı araşdırmaları 120 gün müddətində yekunlaşdırmağı tələb edən və bu cinayətlərlə bağlı cinayət işinin başa çatdırılması üçün 370 gün müddət müəyyən edən sirkulyar dərc edib. Prosesdə gecikmələr məsul prokurorun və ya hakimin gələcək karyera yüksəlişi perspektivləri üçün mənfi nəticələrə səbəb ola bilər. | ***TÜR / Bati qrupu (33097/96)***<br>***Yekun qərar: 03/09/2004***<br>***Fəaliyyət Planı*** |

| | |
|---|---|
| | *TÜR / Aksoy qrupu (21987/93)*<br><br>*Yekun qərar: 18/12/1996*<br><br>*Yekun qətnamə: CM/ResDH(2019)51* |
| İstintaq hərəkətlərini, o cümlədən məhbusların ölümü ilə bağlı araşdırmaları sürətləndirmək üçün aşağıdakı tədbirlər görülmüşdür: Araşdırmaya rəhbərlik etmək üçün Yüksək Məhkəmənin hakiminin sədrlik edən koroner qismində təyin edilməsi; 2016-cı ildə bütün hakim vəzifələrinin tutulması üçün əlavə koronerlərin təyin edilməsi; daha mürəkkəb araşdırmaların yuxarı instansiya hakimlərinə həvalə edilməsi; koronerlərin məşvərət qrupuna yeni vəkilin təyin edilməsi; təxirə salma hallarının azaldılması, işlərin idarə edilməsinin və bölgüsünün təkmilləşdirilməsi; koronerlərə dəstək üçün istintaq-əməliyyat heyətinin təyin edilməsi; araşdırmaların vaxtında yekunlaşdırılmasını və ifadələrin operartiv şəkildə alınmasını təmin etmək üçün monitorinq mexanizminin yaradılması. 2015-ci ildə koronerlərin xidmətinin yenidən nəzərdən keçirilməsindən sonra səmərəliliyi artırmaq və istintaq prosesində gecikmələri azaltmaq üçün 13 tövsiyə verilmiş, həmin tövsiyələr icraya qəbul edilmiş və 2016-cı ilin sonunadək həyata keçirilmişdir. | *BK / McDonnell (19563/11)*<br><br>*Yekun qərar: 06/12/2016*<br><br>*Yekun qətnamə: CM/ResDH(2016)356* |

## *3.a. Operativlik və müəyyən edilmiş müddətlər arasında əlaqə*

| | |
|---|---|
| Aparılan araşdırmaların ciddiliyinə Prokurorluğun Kollegiyası nəzarət edir, 2018-ci ildə qəddar rəftara görə əfv fərmanını ləğv edən qanunun qəbulu isə qəddar rəftarın qəbuledilməz olduğunun açıq-aydın əlamətidir. Cinayət Prosessual Məcəlləsinin layihəsinə hərtərəfli təminatlar sistemi daxil edilmişdir ki, onların da arasında məhkəməyəqədər icraat üçün dəqiq müddətlər müəyyən edən müddəalar var. İşgəncə aktlarının araşdırılması üçün Cinayət Məcəlləsində nəzərdə tutulan müddət məhdudiyyətinin ləğvi nəzərdə tutulur. | *ERM / Muradyan (11275/07)*<br><br>*Yekun qərar: 24/02/2017*<br><br>*Fəaliyyət Planı* |
| Cinayət icraatları üçün müəyyən edilmiş müddətlərin ötməməsini təmin etmək üçün 2020-ci ildən etibarən birinci instansiya məhkəməsinin hökmündən sonra müddətin axımı məhkəmə icraatının qalan müddəti üçün dayandırılır. İşgəncələrə görə dövlət qulluqçularına verilən cəzalarım icrası təxirə salına bilməz. Polis əməkdaşlarına və karabinerlərə qarşı intizam araşdırmaları eyni faktlarla bağlı cinayət icraatından ayrılıqda müstəqil olaraq başlanır, aparılır və yekunlaşdırılır və sonuncunun nəticəsi məlum olana qədər müvəqqəti dayandırıla bilər. | *İTA / Cestaro qrupu (6884/11)*<br><br>*Yekun qərar: 07/04/2015*<br><br>*Fəaliyyət hesabatı* |
| 1989-cu ilin dekabrında və 1990-cı ilin iyununda hökumət əleyhinə nümayişlərin dağıdılması zamanı ölümlə nəticələnmiş güc tətbiqindən istifadə ilə bağlı araşdırmaların səmərəsizliyini aradan qaldırmaq üçün qəbul edilmiş tədbirlər aşağıdakılardan ibarət olmuşdur: 2012-ci ilin martında qəsdən həyat əleyhinə törədilən cinayətlərin araşdırılması üçün qanunla müəyyən edilmiş müddət məhdudiyyəti aradan qaldırılmış və bu işlər üzrə araşdırmaların davam etdirilməsinə icazə verilmişdir. Bundan əlavə, 2014-cü il tarixli Cinayət Məcəlləsində və Cinayət Prosessual Məcəlləsində istintaq orqanlarının araşdırma ilə əlaqəli sübutları olan orqanların onlarla əməkdaşlıqdan imtina etməsini aradan qaldırmasına şərait yaradan hüquqi imkanlar təmin edilmişdir. | *RUM / "21 dekabr 1989-cu il" Assosiasiyası qrupu (33810/07+)*<br><br>*Yekun qərar: 28/11/2011*<br><br>*Fəaliyyət Planı* |

## 4. QURBANLARIN İŞTİRAKI VƏ İCTİMAİ NƏZARƏT

*Konvensiyanın tələbinə əsasən, təhlükəsizlik qüvvələrinin nümayəndələri tərəfindən törədilən ölüm və ya qəddar rəftar halları ilə bağlı araşdırmalarda qurbanların (və ya vəziyyətdən asılı olaraq onların qohumlarının) qanuni mənafelərinin qorunması üçün onların həmin araşdırmalarda lazımi dərəcədə iştirakına icazə verməlidir. Bu cür iştirak onların istintaq materialları ilə tanış olmaq imkanına malik olmasını əhatə etməlidir, hərçənd ki, istintaq materiallarındakı bütün elementlərlə onların tanış olmasına icazə verilməyə bilər. Bu kontekstdə hüquqi yardım məsələsi meydana çıxa bilər. Digər məsələ isə istintaqa xitam verilməsi barədə qərarların əsaslandırılmasının zəruriliyidir. Bütövlükdə ictimai nəzarətə gəlincə, hesabatlılığın təmin edilməsinin və hakimiyyətin cavab tədbirlərinə ictimaiyyətin etimadının qorunmasının zəruriliyi aşkarlıq və konfidensiallıq arasında balansın olduqca diqqətlə gözlənilməsini tələb edir.*

| | |
|---|---|
| Qurbanların (zərərçəkənlərin) prosessual hüquqlarına (məsələn: icraatın dayandırılması, prokuror tərəfindən araşdırmaya başlanılmaması və istintaqın uzadılması ilə bağlı qərarlardan şikayət vermək hüququ; icraatın vəziyyəti haqqında məlumat almaq və prokurorun icraatında olan işin materialları arasındakı sənədlərin və sübutların surətləri ilə tanış olmaq hüququ) dair müddəalar 2017-ci ildə Cinayət Prosessual Məcəlləsinə daxil edilmişdir. Bundan başqa, Baş Prokurorluğun 2018-ci ildə verdiyi təlimatlarda cinayət əməllərinin qurbanlarına və şahidlərinə konkret yardım göstərilməsi nəzərdə tutulur. | ***ALB / Pihoni (74389/13)***<br><br>***Yekun qərar: 13/05/2018***<br><br>***Fəaliyyət Planı*** |
| Zərərçəkənlərin davam edən istintaqla bağlı məlumat almaq hüququ 2014-cü ildə Cinayət Prosessual Məcəlləsinə daxil edilib və onlara prinsipcə iş materialları ilə tanış olmaq imkanı verilib. Yeni yaradılmış İşgəncələrə və Qəddar Rəftara qarşı Mübarizə üzrə Qurumlararası Şura qurbanlara səmərəli hüquqi yardım göstərilməsinin vacibliyini vurğulayıb. 2018-ci ildə qəbul edilmiş dəyişikliklərdən və daha sonra Konstitusiya Məhkəməsinin onları aydınlaşdıran qərarından sonra prokurorun hər hansı şəxsə “zərərçəkmiş statusu” verməkdən imtina etməsindən bütün cinayət növləri üzrə yuxarı prokurora və son nəticədə məhkəməyə şikayət verilə bilər. Prokurorluqda zərərçəkmişlərin və şahidlərin prosessual hərəkətləri zamanı onların maraqlarını dəstəkləmək və qorumaq üçün Zərərçəkmişlərin və Şahidlərin Koordinasiyası Xidməti yaradılmışdır. | ***GÜR / Tsintsabadze qrupu (35403/06)***<br><br>***Yekun qərar: 18/03/2011***<br><br>***Fəaliyyət Planı*** |
| 1989-cu ilin dekabrında və 1990-cı ilin iyununda hökumət əleyhinə nümayişlərin dağıdılması zamanı ölümlə nəticələnmiş güc tətbiqindən istifadə ilə bağlı yeni araşdırmalar kontekstində qurbanların ailələri üçün Respublika Prokurorluğunun internet səhifəsində mütəmadi olaraq yenilənən məlumatlar dərc olunub. Bundan əlavə, şikayətçilərlə qarşılıqlı əlaqə daha da intensivləşib və araşdırmada irəliləyişlər olduqca bütün zərərçəkmiş tərəfləri yenidən dinləmək niyyəti mövcuddur. | ***RUM / “21 dekabr 1989-cu il” Assosiasiyası qrupu (33810/07+)***<br><br>***Yekun qərar: 28/11/2011***<br><br>***Fəaliyyət Planı*** |
| 2005-ci il tarixli Cinayət Prosessual Məcəlləsi dövlət ittihamçılarının təhlükəsizlik qüvvələrinin əməkdaşları tərəfindən törədildiyi iddia edilən sui-istifadə halları ilə bağlı cinayət təqibinə başlamamaq qərarına gəldiyi hallarda qurbanın araşdırmada iştirakını və avtomatik olaraq işə məhkəmə nəzarəti qaydasında baxılması üçün müraciət etmək hüququnu təmin edir. | ***TÜR / Ahmet Özkan və başqaları (21689/93)***<br><br>***Yekun qərar: 10/11/2004***<br><br>***Aralıq qətnamə: CM/ResDH(2005)43*** |
| Birləşmiş Krallığın silahlı qüvvələri tərəfindən cənubi İraqın işğalı zamanı İraq vətəndaşlarının ölümü ilə bağlı araşdırmalara gəldikdə, Müdafiə Nazirliyi 2010-cu ildə İraqla bağlı Tarixi İddiaların Araşdırılması Qrupu (IHAT) tərəfindən aparılan cinayət araşdırmaları ilə Ali Məhkəmənin təqaüddə olan hakimi tərəfindən aparılan (“ölüm hallarının araşdırılması” adlandırılan) faktaraşdırıcı tipli təhqiqatın kombinasiyasından ibarət olan istintaq prosesində qurbanların ailələri iştirak etmişlər və istintaq barədə məlumatlar geniş ictimaiyyət üçün əlçatan olmuşdur. 2016-cı ildə Ali Məhkəmə İHAT tərəfindən aparılan araşdırmanın ardınca, sərf ediləcək insan əməyi və şəxsin hansı şəraitdə öldüyünü müəyyənləşdirmək üçün dəqiq nəticə əldə etmək ehtimalı nəzərə alınmaqla, "ölümlə bağlı istintaq" aparılmasının məqsədəuyğunluğunu, əsaslılığını və mütənasibliyini qiymətləndirərkən nəzərə alınmalı olan prinsipləri müəyyən etmişdir. | ***BK / Al-Skeini və başqaları (55721/07)***<br><br>***Yekun qərar: 07/07/2011***<br><br>***Yekun qətnamə: CM/ResDH(2016)298*** |

| | |
|---|---|
| 1980-1990-cı illərdə təhlükəsizlik qüvvələrinin əməliyyatları zamanı Şimali İrlandiyada baş vermiş ölüm hallarının araşdırılması ilə bağlı ictimai nəzarətin və qurbanların ailələrinin məlumatlandırılmasının zəruriliyi ilə əlaqədar olaraq, Dövlət Prokurorluğu cinayət təqibinin aparılmaması barədə qərarların səbəblərini izah etmək siyasətini qəbul etmişdir və bu qərarlardan məhkəməyə şikayət edilə bilər. Bundan əlavə, zərərçəkmişlərin ailələrinə icraatda təmsil olunmaları üçün hüquqi yardım göstərilmişdir. Yeni vahid müstəqil istintaq orqanı olan Tarixi Araşdırmalar Bölməsi yaradıldıqdan sonra bu qurumun tərkibində prosesin əvvəlindən zərərçəkmişlərin yaxın qohumlarını araşdırmada iştiraka cəlb etməyə yönələn xüsusi işçi heyəti olacaqdır. | *BK / McKerr qrupu (28883/95)*<br>*Yekun qərar: 04/08/2001*<br>*Fəaliyyət Planı* |
| Ukraynanın 2012-ci il tarixli Cinayət Prosessual Məcəlləsinin təkmilləşdirilməsi qurbanların araşdırmada iştirakı sahəsində vəziyyəti yaxşılaşdırıb, o cümlədən qurbanların aşağıdakı hüquqları nəzərdə tutulub: izahat vermək və sübutlar təqdim etmək; icraatla bağlı məlumat almaq; iş materiallarına baxmaq və sənədlərin surətlərini almaq; araşdırmada təmsil olunmaq; müstəntiqlərin, prokurorların və ya hakimlərin qərarları, hərəkətləri və ya hərəkətsizliyi ilə bağlı vəsatətlər və etirazlar təqdim etmək; məhkəmə prosesində iştirak etmək və apellyasiya şikayəti vermək. | *UKR / Gongadze (34056/02)*<br>*Yekun qərar: 08/02/2006*<br>*Fəaliyyət Planı* |

## 5. CİNAYƏTİN XÜSUSİ MOTİVLƏRİNİN ARAŞDIRILMASI

*Ölüm və qəddar rəftarla bağlı araşdırmaların səmərəli olması üçün mümkün irqçi və ya digər ayrı-seçkilik motivlərinin araşdırılmasına xüsusi diqqət yetirilməlidir. Digər motivlər, məsələn, jurnalistlərə və ya digər media nümayəndələrinə qarşı hücumların arxasında kimlərin dayanması konkret cavab tələb edə bilər. Bu cür motivlərin adekvat şəkildə araşdırılmasını təmin etmək üçün müvafiq cinayət qanunlarında dəyişiklik edilməsi də tələb oluna bilər.*

| | |
|---|---|
| 2011-ci ildə Cinayət Məcəlləsində dəyişiklik edildi və irqçi və ya ksenofob motivlərlə adamöldürmə və bədən xəsarətləri yetirmə ağırlaşdırıcı hal kimi nəzərdə tutuldu. Bu müddəalar istintaq orqanlarına təhlükəsizlik qüvvələrinin həddən artıq güc tətbiq etməsinin kökündə mümkün irqçilik motivlərinin olub-olmadığını araşdırmaq imkanı verir. | ***BOL / Nachova və başqaları (43577/98)***<br>***Yekun qərar: 06/07/2005***<br>***Yekun qətnamə: CM/ResDH(2017)97*** |
| Yürüşlər/toplantılar zamanı LGBTİ fəallarına və "Yəhva şahidləri" dini icmasının nümayəndələrinə qarşı zorakı hücumlar kontekstində ayrı-seçkilik və nifrət zəminində cinayətlərlə bağlı araşdırmaların səmərəliliyini artırmaq üçün dövlət vəkilinin mandatı 2010-cu ildə genişləndirilərək fiziki şəxslərə də şamil edildi: Həm hüquqi, həm də fiziki şəxslər 10 gün ərzində iddia edilən ayrı-seçkilik aktları haqqında məlumat təqdim etməyə borcludurlar. Daha sonra dövlət vəkilinin tövsiyəsinə əməl edilmədikdə, iddiaçı/şikayətçi Mülki Prosessual Məcəlləyə uyğun olaraq işi məhkəmələrə göndərmək hüququna malikdir. 2018-ci ildə edilmiş dəyişikliklərlə Cinayət Məcəlləsində ayrı-seçkilik zəminində törədilmiş cinayətlərə görə cəzaların müddəti artırılıb. | ***GÜR / Identoba və başqaları qrupu (73235/12)***<br>***Yekun qərar: 12/08/2015***<br>***Fəaliyyət Planı*** |
| 2012-ci ildə polis əməkdaşlarına ünvanlanmış bir sirkulyarla polis rəisi irqçi davranışla bağlı şikayətlərə prioritet qaydada baxılmasını tələb etdi. 2014-cü ildə dərc edilmiş növbəti sirkulyarda polis rəisi qeyd etdi ki, polis orqanları şəxsə qarşı qəddar rəftarın kökündə milli mənşə, din, cinsi oriyentasiya, yaş, əlillik əlamətlərindən və ya hər hansı digər ayrı-seçkilik xarakterli davranışdan irəli gələn səbəblərin olub-olmadığını araşdırmaq öhdəliyi daşıyırlar. | ***YUN / Makaratzis qrupu (50385/99)***<br>***Yekun qərar: 20/12/2004***<br>***Hökumətin yazışmaları*** |
| 2019-cu ildə nifrət zəminində törədilən cinayətlərə qarşı mübarizə sahəsində polisin vəzifələri barədə yeni protokola bu növ cinayətlərin müəyyən edilməsini asanlaşdıran qərəzlilik göstəricilərinin (indikatorlarının) siyahısı daxil edilib. Nifrət zəminində cinayətlər üzrə mütəxəssislər şəbəkəsi də yaradılıb. O, hər bir regional polis idarəsinin əməkdaşlarından ibarətdir və onlara milli qərargahın zabiti rəhbərlik edir. Onlara nifrət zəminində cinayətlərə qarşı mübarizəyə nəzarət etməklə yanaşı, polis əməkdaşları üçün müntəzəm təlimlərin təşkili də tapşırılıb. Bundan əlavə, polis əməkdaşlarına nifrət zəminində cinayətləri müəyyən etməkdə köməklik üçün hər bir polis bölməsində "məsəhətçilərin" təyin edilməsi nəzərdə tutulur. | ***MAC / Balázs qrupu (15529/12)***<br>***Yekun qərar: 14/03/2016***<br>***Fəaliyyət hesabatı*** |
| Qaraçılara qarşı irqi motivli qəddar rəftarla bağlı araşdırmalarla əlaqədar olaraq, 2006-cı ildən cinayət qanununda nəzərdə tutulur ki, irqi motiv qanunla müəyyən edilmiş ağırlaşdırıcı haldır və hər bir konkret halda onun mövcudluğunu dövlət orqanları öz təşəbbüsləri əsasında araşdırılmalıdırlar. | ***RUM / Barbu Anghelescu №1 (46430/99)***<br>***Yekun qərar: 05/01/2005***<br>***Yekun qətnamə: CM/ResDH(2016)150*** |
| 2015-2016-cı illərdə Cinayət Məcəlləsinə jurnalistlərə münasibətdə qətl və ya adamöldürməyə cəhd, girov götürmə, zor tətbiqi ilə hədələmə, əmlaka qəsdən zərər vurma kimi cinayətlərə görə cinayət məsuliyyəti nəzərdə tutan dəyişiklik edilib. Bundan əlavə, jurnalistin qanuni peşə fəaliyyətinə mane olmağa görə cinayət məsuliyyəti sərtləşdirilib. | ***UKR / Gongadze (34056/02)***<br>***Yekun qərar: 08/02/2006***<br>***Fəaliyyət Planı*** |

# 6. ARAŞDIRMALARA MÜSTƏQİL NƏZARƏT

*Ölkədaxili sistem araşdırmanın aparılması ilə bağlı şikayətlərə baxılması üçün müstəqil mexanizmin mövcudluğunu təmin etməlidir. Buna görə də, adekvat nəzarətin təmin edilməsindən ötrü istintaq orqanları istintaq hərəkətləri üçün əsaslandırılmış qərarlar verməlidirlər. Milli hüquq sistemlərinin müxtəlifliyi və müvafiq qurumların müxtəlif rolları nəzərə alınaraq, aşağıdakılar dövlətlərdən asılı olaraq daha çox və ya daha az əhəmiyyət kəsb edə bilər: prokurorluq orqanlarının istintaqa rəhbərliyi və nəzarəti; istintaq aparan hakimlərin rolu; digər dövlət orqanlarının, məsələn, məhkəmələrin və ya milli insan hüquqları institutunun/ombudsmanın rolu; milli parlamentin və ya parlament strukturunun mümkün rolu.*

| | |
|---|---|
| Prokurorun ibtidai araşdırmaya xitam verilməsi barədə qərarından prokurorluq orqanlarına şikayət verilir. İddia edilən ağır cinayətlərə dair işlərdə məhkəməyə şikayət etmək imkanı da mövcuddur. | ***GÜR / Gharibashvili (11830/03)***<br>***Yekun qərar: 29/10/2017***<br>***Yekun qətnamə: CM/ResDH(2017)287*** |
| 2017-ci ildə Ombudsman Aparatında hüquq-mühafizə orqanlarının əməkdaşlarının və saxlama yerlərinin əməkdaşlarının qəddar rəftar, odlu silahdan qanunsuz istifadə halları ilə və irqçi motivli və ya ayrı-seçkilik xarakterli qanunsuz davranışla bağlı hərəkətlərindən şikayətlərin toplanması, qeydə alınması, qiymətləndirilməsi və səlahiyyətli orqanlara göndərilməsi üçün Milli Araşdırma Mexanizmi yaradılmışdır. Bundan əlavə, Ombudsman iddiaları öz təşəbbüsü ilə və ya müraciət əsasında özü araşdırmaq və ya səlahiyyətli intizam orqanına göndərmək barədə qərar qəbul edə bilər. Ombudsman həmçinin Avropa Məhkəməsinin ilkin araşdırmanı səmərəsiz hesab etdiyi hallarda inzibati araşdırmanın yenidən başlanmasını tələb edə bilər. | ***YUN / Makaratzis qrupu (50385/99)***<br>***Yekun qərar: 20/12/2004***<br>***Fəaliyyət hesabatı*** |
| 2011-ci ilin yanvar ayında bütün davam edən cinayət prosesləri haqqında məlumat bazası yaradılmışdır. O, cinayət prosesinə prokuror nəzarətinin gücləndirilməsi üçün alət rolunu oynayır. Bundan əlavə, 2010-cu ildə Baş prokuror vəzifəli şəxslər tərəfindən törədilmiş hüquqpozmalarla bağlı cinayət işlərinə prokuror nəzarətinin gücləndirilməsinə dair əmr verib və bu mövzuda metodiki göstərişlər hazırlayıb. Baş Prokurorluq araşdırmaların operativliyini təmin etmək üçün mütəmadi olaraq müvafiq statistik məlumatları qiymətləndirir və müəyyən araşdırma növlərinə prioritet verir. 2010-cu ildən başlayaraq, dövlət qulluqçularına qarşı aparılan araşdırmalar nəzarətin genişləndirilməsi üçün daimi prioritet statusu əldə edib. | ***LAT / Holodenko qrupu*** **(17215/07)**<br>***Yekun qərar: 04/11/2013***<br>***Yekun qətnamə: CM/ResDH(2018)382*** |
| 2018-ci ildə Ombudsman Aparatında vətəndaş cəmiyyətinin müstəqil üzvlərinin də daxil olduğu nəzarət orqanı yaradılıb. Onun vəzifəsi hüquq-mühafizə orqanları tərəfindən qəddar rəftara bərabər olan hər hansı hüquqpozmaya görə barələrində araşdırma aparılması və onların məsuliyyətə cəlb edilməsi prosedurlarını monitorinq etmək və yoxlamaqdır. | ***MKD / El-Masri (39630/09)***<br>***Yekun qərar: 13/12/2012***<br>***Yekun qətnamə: CM/ResDH(2019)369*** |
| Kiprli türk jurnalistin öldürülməsi ilə bağlı araşdırmada nöqsanlara yol verildikdən sonra 2006-cı ildə Baş prokurorun polis araşdırmalarında rolu gücləndirildi və zəruri hallarda ona Polis Qüvvələri Baş İdarəsi tərəfindən aparılan araşdırmalara nəzarət və ya rəhbərlik etmək səlahiyyəti verildi. | ***TÜR / Adali (38187/97)***<br>***Yekun qərar: 12/10/2005***<br>***Yekun qətnamə: CM/ResDH(2010)12*** |

## 7. QURBANLAR ÜÇÜN TƏZMİNAT

*Dövlətlər insan hüquqlarının ciddi pozuntularının qurbanlarının dəymiş ziyana görə tez və adekvat təzminat almasını təmin edən əlçatan və səmərəli mexanizmlər yaratmaq üçün bütün müvafiq tədbirləri görməlidirlər.[1] Maliyyə təzminatı və rəsmi üzrxahlıq kimi aşağıda göstərilən müxtəlif kompensasiya formaları dövlətlərin araşdırmaları yenidən başlatmaq/bərpa etmək/davam etdirmək öhdəliyini, o cümlədən bu öhdəliyin uğurla yerinə yetirilməsinin mümkünsüz olduğu hallarda, faydalı şəkildə tamamlaya bilər.*

| | |
|---|---|
| Müharibə cinayətləri ilə bağlı səmərəsiz araşdırmalardan və *B. və başqalarının işində* Avropa Məhkəməsinin gəldiyi nəticələrdən sonra ərizəçilər zərərin ödənilməsi ilə bağlı mübahisələndirilən məhkəmə icraatının yenidən başlanmasını xahiş etdilər. Bərpa olunmuş məhkəmə icraatında ərizəçilərin hər birinə qohumlarının dövlət nümayəndələri tərəfindən öldürülməsi nəticəsində məruz qaldıqları mənəvi iztirablarla əlaqədar mənəvi zərərə görə təqribən 30.000 avro təyin edildi. Bundan başqa, *M. və başqalarının işində* ərizəçilər Avropa Məhkəməsinin qərarı çıxarılmazdan əvvəl qohumlarının öldürülməsi də daxil olmaqla müharibə cinayətlərində komandir olaraq təqsirkar sayılan şəxsin məsuliyyəti barədə ölkədaxili məhkəmə qərarından sonra mülki icraatın bərpa olunması üçün müraciət etmişdilər. Daxili məhkəmələr onların hər birinə qohumlarının dövlət nümayəndələri tərəfindən öldürülməsi nəticəsində məruz qaldıqları mənəvi iztirablarla əlaqədar mənəvi zərərə görə təqribən 30.000 avro təyin etdilər. | ***XOR / Skendžić və Krznarić qrupu (16212/08)***<br>***Yekun qərar: 20/04/2011***<br>***Fəaliyyət Planı*** |
| 2009-cu il parlament seçkilərindən sonra zorakı xarakterli nümayişlər zamanı polisin həddindən artıq güc tətbiq etməsindən sonra hökumət və parlament mübahisə predmeti olan bu hadisələrdən sonra milli hüquq-mühafizə orqanlarının və məhkəmə sisteminin qeyri-adekvat reaksiyasına görə təəssüfləndiklərini bildirmişlər. Bundan əlavə, zərər çəkdiyi müəyyən edilmiş mülki şəxslərə milli səviyyədə kompensasiya təyin etmək üçün xüsusi hökumət komitəsi yaradılmışdır. Bu kompensasiya daxili məhkəmələr tərəfindən əlavə olaraq təyin edilə bilən maddi və ya mənəvi zərərin ödənişini əvəzləyən vasitə hesab edilməmişdir. | ***MDA / Taraburca qrupu (18919/10)***<br>***Yekun qərar: 06/03/2012***<br>***Yekun qətnamə: CM/ResDH(2018)464*** |
| 2018-ci ildə ərizəçinin MKİ-nin əməliyyatları kontekstində qəddar rəftarla bağlı şikayət verməsi üçün müddətin başa çatdığını nəzərə alaraq, Xarici işlər naziri hökumətin adından ərizəçiyə məruz qaldığı böyük iztirablara və hakimiyyət orqanlarının hüquqa zidd davranışı nəticəsində ona vurulmuş zərərə görə qeyd-şərtsiz təəssüfləndiyini bildirərək yazılı üzrxahlıq istədi. 2018-ci ildə ərizəçinin bir avro simvolik dəyərində mənəvi ziyana görə kompensasiya iddiası ölkədaxili mülki məhkəmələr tərəfindən tanındı və bununla da mübahisələndirilən faktların baş verdiyi rəsmən etiraf edildi.<br>1987-2002-ci illər arasında fövqəladə vəziyyət rejimi çərçivəsində Türkiyənin cənub-şərqində terrorizmlə mübarizə kontekstində aşkar edilmiş pozuntulara gəldikdə, ərizəçilərə "Kompensasiya haqqında" 2004-cü il tarixli yeni Qanun əsasında xüsusi kompensasiya komissiyası və ya inzibati məhkəmələr qarşısında təzminat tələb etmək imkanı verilmişdir, həmin qanunda nəzərdə tutulub ki, şəxs terrorizmlə mübarizənin gedişində dövlətin təqsiri ucbatından itkilərə məruz qaldıqda kompensasiya almaq hüququna malikdir. Bu qanun xüsusi qanun olaraq dövlətin inzibati aktlar nəticəsində dəymiş ziyana görə məsuliyyətini müəyyən edən qanunları dolğunlaşdırır və konkretləşdirir və onun müddəalarının 1987-ci ildən sonra və 2004-cü ildən əvvəl baş verən hadisələrə retrospektiv qaydada şamil oluna biləcəyi nəzərdə tutulur. | ***MKD / El-Masri (39630/09)***<br>***Yekun qərar: 13/12/2012***<br>***Yekun qətnamə: CM/ResDH(2019)369***<br>***TÜR / Aksoy qrupu (21987/93)***<br>***Yekun qərar: 18/12/1996***<br>***Yekun qətnamə: CM/ResDH(2019)51*** |

[1] Bax: Nazirlər Komitəsinin İnsan hüquqlarının ciddi pozuntularına görə cəzasızlığın aradan qaldırılmasına dair təlimatları (XVI təlimat), Nazirlər Komitəsi tərəfindən nazirlərin nümayəndələrinin 1110-cu iclasında qəbul edilib.

## ƏLAVƏ – İŞLƏRİN SİYAHISI

*ALB / Pihoni (74389/13)* ................................3, 10
*ERM / Muradyan (11275/07)* ..........................6, 9
*ERM / Virabyan (40094/05)* ................................ 3
*BOL / Nachova və başqaları (43577/98)* ............ 12
*BOL / S.Z. (29263/12)* .......................................... 8
*XOR / Mader (56185/07)*.................................... 3
*XOR / Skendžić və Krznarić qrupu (16212/08)*. 14
*KİP / Khani Kabarra (24459/12)* .......................... 6
*KİP / Shchukin və başqaları (14030/03)* ............... 3
*ÇEX / Eremiasova və Pechova 23944/04)*............. 3
*GÜR / Gharibashvili (11830/03)* ........................ 13
*GÜR / Identoba və başqaları qrupu (73235/12)*. 12
*GÜR / Tsintsabadze qrupu (35403/06)* ..........4, 10
*ALM / Hentschel və Stark (47274/15)*.................. 4
*YUN / Makaratzis qrupu (50385/99)* ...........12, 13
*MAC / Balázs qrupu (15529/12)* ........................ 12
*İTA / Cestaro qrupu (6884/11)*............................ 9
*LAT / Balajevs (8347/07)*..................................... 4
*LAT / Holodenko qrupu* (17215/07) ................4, 13
*MDA / Corsacov qrupu (18944/02)*...................... 6
*MDA / Levinta (17332/03)*.................................. 6
*MDA / Taraburca qrupu (18919/10)*.................. 14
*MKD / El-Masri (39630/09)* .........................13, 14
*MKD / Jasar qrupu (69908/01)* ............................ 8
*MKD / Kitanovski qrupu (15191/12)* .................... 8
*NDL / Jaloud (47708/08)*...................................... 6
*NDL / Ramsahai (52391/99)* ................................ 8
*POL / Dzwonkovski qrupu (46702/99)*.................. 7
*RUM / "21 dekabr 1989-cu il" Assosiasiyası qrupu (33810/07+)* ............................................ 9, 10
*RUM / Barbu Anghelescu №1 (46430/99)*...... 4, 12
*RUM / Predica qrupu (42344/70)*......................... 7
*RUS / Khashiyev və Akayeva qrupu (57942/00)* 4
*İSVR / Dembele (74010/11)* ................................. 7
*SVN / Franciska Stefancic (58349/09)* .................. 4
*SVN / Matko (43393/98)*...................................... 4
*TÜR / Adali (38187/97)*..................................... 13
*TÜR / Ahmet Özkan və başqaları (21689/93)*...... 10
*TÜR / Aksoy qrupu (21987/93)* ...................8, 9, 14
*TÜR / Bati qrupu (33097/96)* ............................... 8
*BK / Al-Skeini və başqaları (55721/07)*........... 5, 10
*BK / McDonnell (19563/11)* ................................. 9
*BK / McKerr qrupu (28883/95)*........................... 11
*UKR / Afanasyev qrupu (38722/02)* ..................... 5
*UKR / Belousov (4494/07)*................................... 5
*UKR / Gongadze (34056/02)*........................ 11, 12
*UKR / Kaverzin qrupu (23893/03)*........................ 5